8 aprel 2017
www.kaspi.az


Uilyam Frayer Harv

# Bataqlıqdan keçəndə

*hekayə*

Doğrudan da, çox pis vəziyyət yaranmışdı.

Peqqinin yüksək qızdırması vardı, hətta qırxa çatmışdı qızdırması. Həm də bir böyründə kəskin ağrılar başlamışdı. Xanım Vorkinqton Bankroft dəqiq bilirdi ki, qızdırmaya səbəb kor bağırsaqdır. Amma həkim çağırmaq üçün kimi göndərəcəyini bilmirdi.

Əri bir həftə idi ki, ovdaydı, böyük oğlu Ceyms arabayla onu qarşılamağa getmişdi. Adolfu yarım saat bundan qabaq Everşamsa göndərmişdi, xanım Evaya bir xəbər çatdırmalıydı.

Aşpaz olmasa da yeməyi kimsə hazırlaya bilərdi, amma problem ondaydı ki, aşpaz yaşlı qadın idi və güclə yeriyirdi.

Keytə isə həmişəki kimi belə ağır işi etibar etmək olmazdı. Bacarmazdı.

Yalnız mürəbiyyəni, xanım Kreyqi göndərə bilərdi.

Beləcə, onu otağına çağırtdırdı.

Xanım Kreyqi otağa girəndə xanım Vorkinqton üzünü ona tutdu:

- Əlbəttə, sən özün də Peqqinin vəziyyətini görürsən, məsələ bundadır ki, həkim dalınca göndərmək üçün bircə nəfər də yoxdur.

O, sözünə ara verdi. Ümid edirdi ki, mürəbiyyə həkim çağırmağa getmək istədiyini deyəcək. Amma ondan səs çıxmadığını görən Vorkinqton sözünə davam etdi:

- Xanım Kreyqi, bəlkə sən gedəsən Tebbitlərin fermasına. Eşitdiyimə görə, Liverpuldan olan bir həkim orda qalır, deyəsən, istirahət üçün gəlib. Düzdür, mən o həkim haqda heç nə bilmirəm. Amma risk etməliyik, məncə, o həkim tətil günlərində də pul qazanmağa çox şad olar. Bizim evdən ora qədər cəmi dörd mildir. Mən kor bağırsağın ağır fəsad verəcəyini yaxşı bilirəm. Yoxsa heç vaxt səni gecə vaxtı bir yerə göndərmək ağlıma da gəlməzdi.

- Çox yaxşı, - xanım Kreyqi dedi. - Bilirəm ki, getməliyəm, ancaq yolu tanımıram.

- Bilirdim ki. təklifimdən boyun qaçırmarsan, Sən bataqlığın işi ilə iki mil gedirsən, Redman dörd yol ayrıcına qədər, ordan sol tərəfə dönürsən, daha sonra kələ-kötür cığırla şam plantasiyasından keçirsən. Bir az gedən kimi dərənin yanında Tebbitlərin ferması yerləşir.

- Pontifi də özünlə götür, - Kreyqi otaqdan çıxanda xanım Vorkinqton dedi. - Düzdür, qorxmalı heç nə yoxdur, amma məncə, it yanında olsa, daha ürəkli olarsan.

Xanım Kreyqi odun sobasının yanına qurumaq üçün qoyduğu çəkmələrini götürmək üçün mətbəxə girəndə aşpaz ona dedi:

- Əlbəttə, Vorkinqton nə etmək lazım olduğunu hamımızdan yaxşı bilir, amma gecə vaxtı səni bataqlığın içiylə həkim çağırmağa göndərməyi düz deyil. Onsuz da, həkim gəlsə də balaca Marqaretə heç nə etməyəcək. Uşaqların hamısı vaxtaşırı belə xəstələnir. Həkim deyəcək ki, bir müddət yataqda qalsın, vəssəlam, sonra hər şey keçib gedəcək.

Xanım Kreyqi çəkməsinin qaytanını bağlaya-bağlaya dedi:

- Əgər adam xortdanlara inanmırsa, gecə vaxtı harasa getməkdən qorxmaz.

- Dəqiq deyə bilmərəm ki, xortdandan qorxuram, ya yox, amma hər halda, mən yatanda mütləq yorğanımı başıma qədər çəkirəm. Sən qorxma, qızım. Mənim öz fikrim var, deyirəm ki, xortdanların dişləməyindənsə hürməyi daha qorxuludur.

Xanım Kreyqi bir neçə dəqiqə xortdanın necə hürməyini gözlərini önünə gətirib gülsə də, nədənsə narahat hiss edirdi özünü. O, həqiqətən də, bir az qorxdu, qulluqçularla yanaşı otaqda yatdığından onların xortdanlara bağlı nağıllarını çox eşitmişdi.

Hətta Redman adlanan dörd yol ayrıcı haqda fikirləşəndə bədəni əsirdi. Eşitdiyinə görə, həmin yerdə dəhşətli qətl hadisəsi olmuşdu. O hadisənin detallarını tamam unutsa da qətlin məhz həmin yolda baş verdiyini xatırlayırdı.

Tezliklə həyəcanı bir az da artdı. Çünki it onunla getmədi, adətən, küt hesab etdiyi it biləndə ki, yalnız mürəbiyyəni müşayiət edəcək, quyruğunu bulaya-bulaya ondan uzaqlaşdı.



Kreyqi onu fitləyib çağırsa da, geri qayıtmadı. Bundan sonra yağış başladı, bu da Kreyqini daha çox narahat etdi. Güclü yağış dyildi, ancaq bataqlıqda gedəcəyi cığırı görünməz etdi.

Tebbitlər ailəsi onu çox yaxşı qarşıladı. Məlum oldu ki, Liverpuldan tətilə gələn həkim iki gün bundan qabaq şəhərə qayıdıb. Tebbitin arvadı Kreyqiyə isti süd verdi, piroq təklif etdi. Oğlundan xahiş etdi ki, ona bataqlıqdan keçən kəsə yolu göstərsin, bu yolla gedəndə şam plantasiyasından keçməyə ehtiyac yox idi. Tebbitin oğlu həvəssiz də olsa razılaşdı. Oğlan Kreyqiyə kəsə yolu göstərib geri qayıdanda hər yan daha qaranlıq göründü. Kreyqi yorğun halda ayaqlarını sürüyə-sürüyə gedirdi. İndi o yolda ayaq səsləri eşidəndə aşpazın xortdanlar haqda dediklərini fikirləşirdi.

Yolda bir kişi görəndə xanım Kreyqinin narahatlığı bir az azaldı. Keşiş idi, onu görən kimi şlyapasını götürüb dedi:

- Məncə, ikimiz də eyni istiqamətə gedirik. Sizi müşayiət etməkdən məmnun olardım.

Kreyqi keşişə təşəkkür edib dedi:

- Gecə yol getmək çox qorxuludur. Kənd adamlarından xortdanlar, ruhlar haqda o qədər eşitmişəm ki, gecə yol getmək az da olsa məni qorxudur.

- Sizin narahatlığınızı yaxşı başa düşürəm, - kişi dedi. - Bir dəfə gecə vaxtı bu yolla gedəndə mən də sizin keçirdiyiniz hissləri yaşamışam. Mənim işim elədir ki, gecələr bu yollarla çox getməli oluram. Bu kələ-kötür yollarda adam nəinki gecə, hətta gündüz də azar.

- Bəs siz bu yolda heç vaxt qorxulu bir şey görməmisiniz? - Kreyqi soruşdu.

- Əgər desəm ki, yollarda nəsə görmüşəm, bu, düz olmaz. Ancaq 11 il əvvəl elə bir hadisə baş verdi ki, bu da həyatımda dönüş nöqtəsi oldu. Görürəm ki, siz də mənim o vaxt keçirdiyim hissləri keçirirsiniz, ona görə də o hadisəni danışmaq istəyirəm.

- Sentyabrın axırları idi. Şəhərə getmişdim, can verən bir qadına görə. Evə qayıtmaq istəyirdim ki, mənə xəbər verdilər ki, kilsə prixoduna mənsub adamlardan biri də ölüm ayağındadır. Ağır xəstə deyildi, qəfil xəstələnmişdi. Mən yola düşəndə saat yeddi olmuşdu. Bataqlığa qədər bir kəndli məni ötürdü, ondan sonra özüm tək gedəsi oldum. Ondan əvvəlki gecə hava çox yaxşı idi. Səmada, narıncı buludlar vardı. Amma həmin gecə səma fərqli idi. Göy üzü qara buludla örtülmüşdü, yalnız səmanın bir tərəfində qürub edən günəşi görmək olardı. Ayaqlarımı sürüyə-sürüyə gedəndə özümü çox pis hiss edirdim. İki gecə arasındakı fərqi düşünürdüm. Bir gün əvvəl səma aydın idi, bir gün isə tutqun. Sanki qış idi. Bir yandan da başqa bir hiss, qorxu hissi mni narahat edirdi. Nədən qorxduğumu heç bilmirdim. Yolun bir tərəfi bataqlıq idi, daş atsam çatardı.

Son dəfə yalnız şotland kəkliklərinin səsini eşitmişdim. Sanki qışqırıb mənə deyirdilər: geri qayıt, geri qayıt! Nə etsəm də qorxu hissi məndən əl çəkmirdi.

Paltomu sonacan düymələdim və bazar günü deyəcəyim moizəni fikirləşdim.

Mən "Job" kitabından surələr oxumağı planlaşdırmışdım. Bu kitabda kənd adamlarından söz açılır, heyvanların itməsi, məhsulun zay olması və sair.

Mən bu barədə moizə oxumazdım, amma mənim özümün torpağımı da üç həftə əvvəl sel basmışdı. İtki nə olduğunu anlayırdım. Yol gedə-gedə kitabdan bəzi surələri özümə təkrar edirdim. On ikinci surəyə çatanda dayandım.

"Allah Şeytana dedi: Onun nəyi varsa sənin gücün altındadır". Bir də gördüm ki, gözlərimi qaranlığa zilləmişəm. İndi olduğumuz yerə çatmışdım. Bilirsiniz bu yol olduğunu nədən tanıyıram? Burdakı bulaqdan. Qəfil yol qırağında bir nəfər gördüm. O yol qırağındakı daşın üstündə oturmuşdu.

- Ata, hara gedirsiniz? - o məndən soruşdu.

O adamın danışığından bildim ki, biz tərəflərin adamı deyil. Payız vaxtı başqa yerlərdən gəlib məhsul yığımına kömək edənlər çox olur. Mən ona hansı tərəfə gedəcəyimi dedim.

- Bir yerdə gedərik, - yad adam dedi.

Çox qaranlıq idi, kişinin üzünü yaxşı görə bilmirdim, ancaq səsinin tonundan qəddar adama oxşayırdı. O yol boyunca gileylənməyə başladı, dedi ki, səhərdən bəri heç nə yeməyib, səhər də yalnız çörək qırıntıları yeyib.

- Mənə qəpik ver, - o dedi.- Yalnız bir gecəlik kirayə pulumdur.

Kişinn əlində qatlama bıçaq və şiş vardı.

Keşiş bir az susub sözünə davam etdi:

- Sizin ev oradır? - keşiş bir az irəlidən gələn işığı göstərib Kreyqidən soruşdu. - Mən gözlədiyimdən də tez çatdıq sizin evə. Eybi yox, hekayəmi sona çatdıraram. Məncə, danışa bilərəm, sən də qaça-qaça gedib evinizə bir neçə dəqiqəyə çatarasan. Bundan sonra bataqlıqda yol gedəndə bir daha qorxmayacaqsınız.

Keşiş sözünə davam etdi:

- Kişi danışdıqca mənə elə gəlirdi ki, o mənim beynimdə fikirləşdiyim qorxulu nağıllardan çıxıb gılib. O məndən saatı soruşdu. Saatımı boynumdan çıxarıb baxdım. Doqquza beş dəqiqə qalmışdı. O kişinin üzünə baxdım saatımı boynuma asanda. O kişli dişlərini bir-birinə qıcamışdı. Onun gözlərindəki parıltını görəndə əsl niyyətini başa düşdüm.

Siz nə vaxtsa bir saniyənin nə qədər olduğunu yoxlamısınız? Saniyənin üçdə biri qədər mən o kişinin üzünə baxdım. Həm özümə, həm də ona yazığım gəlirdi. Elə bu vaxt o heç bir xəbərdarlıq etmədən üstümə atıldı. Mən heç nə hiss etmədim.

Parıltılı bir şey kürəyimə girdi. Bildim ki, onun əlindəki şiş harasa batdı. Sonra səs eşitdim, sanki içimdən nəsə axırdı. Bir müddət yerdə uzanıb evlərin işıqlarına tamaşa etdim, sonra bütün səmada ulduzlar sayrışmağa başladı. Bundan rahat ölüm ola bilməzdi.

Xanım Kreyqi başını qaldırdı. Yanında heç kim yox idi, keşişi görmədi. O bataqlıqda tək idi.

O evə tərəf qaçdı. Qorxudan dişləri şaqqıldayırdı. Evə girəndə saat 9 dəfə vurdu. Axşam saat 9 idi.

**İngilis dilindən tərcümə edən: Sevil Gültən**